**İdxal edilən toxumluq kartof məhsulunda aşkarlanan uyğunsuzluğa dair məlumat**

**(9 iyul 2024)**

Tədbirlər çərçivəsində "Azərbaycan-Alman Dağ Toxumçuluğu" MMC tərəfindən Rusiya Federasiyasından (istehsalçı - “Samara-Solana” QSC) ölkəyə idxal edilmiş ümumi çəkisi 10000 kq toxumluq kartof məhsulu partiyasından nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarında idxal tələblərinə uyğun olaraq müayinələrə cəlb edilib. Aparılmış müayinələr nəticəsində məhsulda karantin tətbiq edilən orqanizm − kartof yumrularında halqavari bakterial çürümə (***Clavibacter michiganensis subsp. sepedonicus (Spieckermann et Kotthoff) Davis et al***.) müəyyən olunub.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq, ölkəyə idxal olunan ərzaqlıq kartof məhsulu partiyasına idxal sağlamlıq aktının verilməsindən imtina edilib, sirayətlənmiş məhsul partiyasının fitosanitar təhlükəsizlik qaydalarına əməl edilməklə emala göndərilməsi, ixracatçı ölkəyə geri qaytarılması və ya məhv edilməsi barədə qərar qəbul edilib.